***Milli Məclisin deputatı Vüqar İskəndərov bildirib ki, 44 günlük Vətən müharibəsindən qalib ayrılan Azərbaycan eyni zamanda regionda yeni reallıqlar yaratdı. Zəngəzur dəhlizinin açılması məsələsi bu reallıqlardan irəli gəlir. Deputat qeyd edib ki, Prezident İlham Əliyevin "CNN Türk" televiziya kanalına müsahibəsində bəyan etdiyi kimi yolların açılması, Zəngəzur dəhlizinin yaradılması, bütün ticarət əlaqələrinin bərpası, Cənubi Qafqazda uzun fasilədən sonra sülhün təmin edilməsi bizim maraqlarımıza cavab verir: "Dövlət başçısının bəyan etdiyi kimi bu, Ermənistanın da maraqlarına cavab verir. Çünki onlar da dəmir yolu ilə həm İranla, həm Rusiya ilə əlaqə yarada bilərlər. Bu günə qədər bu əlaqə yoxdur və onlar üçün də yeni imkanlar ortaya çıxacaq. Beləliklə, əgər Ermənistan bundan sonra normal şəkildə inkişaf etmək istəyirsə, yeni reallıqla barışmalı, 10 noyabr üçtərəfli Bəyanatında öz əksinin tapmış bu məsələnin həlli istiqamətində üzərinə düşən öhdəlikləri yerinə yetirməlidir".***

# Yeni reallıq Zəngəzur dəhlizinin açılmasını zəruri edir



Deputatın sözlərinə görə, bu dəhlizin açılması bir çox məqsədlərə, hədəflərə xidmət göstərir: "Cənab Prezidentin müsahibəsində vurğulandığı kimi bu dəhlizin açılması ilə Azərbaycanla Türkiyə yeni bir nəqliyyat layihəsi ilə birləşəcək. Məlum olduğu kimi, dörd il əvvəl Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılış mərasimi oldu və Azərbaycan bu dəmir yolu sayəsində Türkiyə ilə birləşdi. Zəngəzur dəhlizi isə ikinci bir birləşmə istiqaməti olacaq. Beləliklə, ölkəmiz üçün yeni imkanlar yaranacaq. Eyni zamanda, Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə də dəmir yolu ilə birləşəcək. Bundan başqa, Ermənistanın nəzarəti altında olan Qərbi Zəngəzur ərazisində, Mehri bölgəsində avtomobil yolu da çəkilməlidir. Çünki Zəngəzur dəhlizinin tam fəaliyyəti üçün həm dəmir yolu, həm avtomobil yolu olmalıdır".

V.İskəndərov bildirib ki, Avropa İttifaqının da müsbət yanaşdığı Zəngəzur dəhlizininin açılması region ölkələri üçün də yeni fürsət yaradacaq: "Beləliklə, ortada yeni bir realılıq var və Ermənistanın o reallığa uyğun addım atmaqdan başqa yolu yoxdur. Yəni, Ermənistan vaxt itirmədən Azərbaycanla sülh müqaviləsi imzalamalı və Azərbaycanın dünya tərəfindən tanınan ərazi bütövlüyünü tanımalıdır. Əks təqdirdə Ermənistanı xoş gələcək gözləmir"

***"Xalq qəzeti"***